

*Gün gələcək
Azərbaycan dünyaya günəş kimi doğacaq.*


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 SENTYABR 2019-cu il | CÜMƏ AXŞAMI | № 199 (6526) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLICA-NEWS.AZ


# Prezident İlham Əliyev Rusiyanın Sverdlovsk vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsinin məmnunluq doğurduğu bildirildi.

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulandı. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirildi.

Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi.

**AZƏRTAC**



# İKT-nin geniş tətbiqi ölkəmizin hərtərəfli inkişafına xidmət edir

**2014-2018-ci illərdə informasiya və kommunikasiya texnologiyaları (İKT) infrastrukturu inkişaf etdirilmiş, bölgələrimizdə kənd yaşayış məntəqələri də daxil olmaqla müasir elektron xidmətlərin göstərilməsi imkanları daha da genişləndirilmiş, ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli internetə çıxış təmin edilmişdir. Məhz dövlətin düşünülmüş siyasəti sayəsində Azərbaycan BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının dəyərləndirməsinə əsasən dənizə çıxışı olmayan ölkələr arasında ən güclü transsərhəd bağlantıya və yüksək inkişaf etmiş İKT sektoruna nail olub. Dövlət müasir texnologiyalar istehsalı sahəsinə kifayət qədər böyük sərmayələr yönəldir. Artıq ölkədə kosmik sənaye yaradılıb, Azərbaycan kosmik ölkələr klubunun üzvüdür və bu sahə müvəffəqiyyətlə inkişaf edir.**

Hazırda üç - "Azerspace-1" telekommunikasiya, "Azersky" və "Azerspace-2" peyklərinə malikik. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" 4 noyabr 2008-ci il tarixli 27 nömrəli Sərəncamına əsasən "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" 17 avqust 2009-cu il 443 saylı Sərəncamından sonra ölkəmizdə yeni, müasir kosmik sənaye sahəsi yaradıldı. Təsdiq olunmuş Dövlət Proqramında deyilir: "İnformasiya və kommunikasiya texnologiyaları sahəsi prioritet sahə elan edilmişdir. Rabitə və informasiya texnologiyaları sahəsinin isə neft sahəsindən sonra Azərbaycan iqtisadiyyatının ən inkişaf etmiş sektoru olacağı gözlənilir. İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir".

Beləliklə, hazırda ölkəmiz Trans-Avrasiya Super İnformasiya Magistralı (TASM) layihəsinin reallaşması ilə informasiya-kommunikasiya texnologiyaları mərkəzinə çevrilir. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 02 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş, sənəddə bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən edilmişdir.

Azərbaycanda İKT-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır. Belə ki, statistik məlumata əsasən Azərbaycan Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2016" hesabatında "Şəbəkələşmə Hazırlığı İndeksi"nə görə əvvəlki mövqeyindən 4 pillə irəliləyərək dünyanın 139 ölkəsi arasında 53-cü yerə yüksəlmiş, habelə həmin hesabatda hökumətin gələcəklə bağlı İKT sektoruna yanaşması üzrə dünya ölkələri arasında 8-ci yeri, İKT sektorunun təbliğində hökumətin uğuruna görə 8-ci, hökumətin xidmətlərinin səmərəliliyində İKT-dən istifadə üzrə isə 12-ci yeri tutmuşdur. Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya cəmiyyətinin ölçülməsi 2015" hesabatında isə Azərbaycan "İKT İnkişaf İndeksi"nə görə 167 ölkə arasında 67-ci yerdə qərarlaşmışdır. Həmin hesabatda İKT Qiymət Səbəti İndeksi üzrə isə Azərbaycan 170 ölkə içərisində 60-cı yerdə olmuşdur. 2015-ci ildə dövlət orqanları ilə 7469 müəssisə internet vasitəsilə əlaqə yaratmış və onların sayı 2005-ci illə müqayisədə 36,8 dəfə, 2014-cü illə müqayisədə 3,9 faiz artmışdır.



Ümumiyyətlə, Azərbaycanda informasiya cəmiyyətinin yaradılması, "Elektron hökumət"in formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində sosial-iqtisadi inkişafın təmini və daim yüksəldilməsi aktual məsələdir.

Sənaye və kənd təsərrüfatı sektorlarında innovasiyaların tətbiqi, mütərəqqi həllər və texnologiyalardan daha geniş istifadənin təmin olunması əsas vəzifələrdəndir. Məsələn, Elektron Kənd Təsərrüfatı Sisteminin yaradılması da bu məqsədə xidmət edir. Sistemin istifadəyə verilməsi dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək, subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Elektron sistem fermerlərə öz əkinlərini bazarın tələbinə uyğun planlaşdırmağa kömək edəcək, həmçinin bazarda məhsullar üzrə tələb-təklifin düzgün proqnozlaşdırılmasını asanlaşdıracaq. Qeyd edək ki, bu günə qədər 100 mindən çox fermer sistemdə qeydiyyatdan keçib.

İKT-nin 2014-2017-ci illərdə inkişaf strategiyasının əsasını "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"ya uyğun demokratik inkişafın davamlılığını təmin etmək və qlobal informasiya fəzasına inteqrasiyanı genişləndirərək yüksək inkişaf səviyyəsinə nail olmaq təşkil edir. İKT-nin sürətli inkişafı son zamanlar elektron vizaların verilməsi, "Tax free" sisteminin tətbiqi, Birinci Avropa Oyunları, Formula-1, IV İslam Həmrəyliyi Oyunları, Humanitar forumlar, Mədəniyyətlərarası dialoq kimi mötəbər tədbirlərin keçirilməsinə və sonda ölkədə turizmin yüksək templi tərəqqisinə də əhəmiyyətli töhfələr verib.

**Şükür ƏLİZADƏ,
"Respublika".**

*Maliyyə Nazirliyi:*

# Dövlət borcunun və zəmanətlərinin uçotu daha effektiv aparılacaq

**Prezident İlham Əliyevin 2018-ci il 24 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" ilə müəyyən edilmiş tapşırığın icrası məqsədilə Maliyyə Nazirliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) arasında Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi (DMFAS) Proqramının satın alınması və tətbiqi barədə layihə sənədi imzalanıb.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, icra müddəti 36 ay olan layihə Asiya İnkişaf Bankı (ADB) və İqtisadi İşlər üzrə Dövlət Katibliyinin (SECO) maliyyə dəstəyi (qrant şəklində) ilə həyata keçiriləcək. Layihə çərçivəsində proqram təminatının Maliyyə Nazirliyinin daimi istifadəsinə verilməsi və qurumun əməkdaşlarına müvafiq təlimlərin keçirilməsi nəzərdə tutulur.

Layihə müasir informasiya texnologiyalarının tətbiq edilməsi ilə dolğun borc məlumatlarının etibarlı saxlanılması, daha səmərəli şəkildə idarə edilməsi, eləcə də borc məlumatlarının daha effektiv təhlili əsasında funksional çərçivə üzrə strateji məqsədlərə nail olmağa töhfə verəcək. Bununla yanaşı, layihə dövlət borcunun və zəmanətlərin hesabatlılığının da təkmilləşdirilməsini hədəfləyir.

UNCTAD-ın Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi - DMFAS Proqramının əsas məqsədi davamlı iqtisadi inkişaf, idarəetmənin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması məqsədilə dövlət borclarının daha səmərəli şəkildə idarə edilməsini təmin etməkdir. Eyni zamanda, DMFAS borc idarəetmə prosedurlarını asanlaşdırır və beynəlxalq və ölkə səviyyəsində hesabatların daha şəffaf və dəqiq hazırlanmasına şərait yaradır.

Hazırda DMFAS proqramı 60-dək ölkənin maliyyə nazirliklərinə və mərkəzi banklarına istehsal qabiliyyətlərinin artırılması istiqamətində borc məlumatlarının etibarlı şəkildə idarə edilməsinə dəstək verir.

**AZƏRTAC**

*Türkiyə XİN:*

# Ermənistanın status-kvonu saxlamaq cəhdləri qəbuledilməzdir

**Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və onun ətraf bölgələrini işğalda saxlaması Cənubi Qafqazda regional sabitliyin və inkişafın qarşısını alan ən böyük çətinlikdir.**

Türkiyənin Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən açıqlamada bildirilir ki, Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq hüquq və BMT-nin qətnamələri çərçivəsində, sülh şəraitində və ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində həll edilməsini dəstəkləyir.

Türkiyə tərəfi Ermənistanın qanunsuz olaraq işğal etdiyi Dağlıq Qarabağ bölgəsində 2019-cu ilin 8 sentyabr tarixində keçirilən "yerli özünüidarəetmə seçkilərini" tanımır. Ermənistanın beynəlxalq hüquqa zidd olan status-kvonu saxlamaq cəhdləri keçmişdə olduğu kimi, bu gün də qəbuledilməzdir və bütün bunların sülh danışıqlarına fayda verməyəcəyini açıq şəkildə ifadə edirik.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 387** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, xüsusi rütbəsi olan əməkdaşlara ərzaq payı əvəzinə verilən aylıq pul kompensasiyasının məbləğinin, habelə əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2008-ci il 12 avqust tarixli 183-20 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 22 aprel tarixli 185-9 nömrəli Qərarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1257 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar cari ilin sonunadək tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2019-cu ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**5.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

**6.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aylıq pul təminatının artımı ilə əlaqədar olaraq bu Qərarın 1-ci hissəsində göstərilən xüsusi rütbəsi olan əməkdaşların əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən hesablanmasını və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanunu ilə bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**7.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin büdcədən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərini müəyyən etsin.

**8.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

**9.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, xüsusi rütbəsi olan əməkdaşlara ərzaq payı əvəzinə verilən aylıq pul kompensasiyasının məbləğinin, habelə əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 12 avqust tarixli 183-20 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

**10.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 185-9 nömrəli Qərarı ləğv edilsin.

**11.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 388** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 30 avqust tarixli 36327 nömrəli, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli və”Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və”Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə” 2019-cu il 2 may tarixli 206-11 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1252 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etməkməqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**5.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

**6.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**7.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

**8.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli Qərarı ləğv edilsin.

**9.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 avqust tarixli 363-27 nömrəli Qərarı ləğv edilsin.

**10.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli Qərarı ləğv edilsin.

**11.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və”Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 206-11 nömrəli Qərarı ləğv edilsin.

**12.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 391** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə” 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 2 may tarixli 205-10 nömrəli, “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” 2019-cu il 10 may tarixli 215-12 nömrəli və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”ndə dəyişikliklər edilməsi barədə” 2019-cu il 10 iyun tarixli 263 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1254 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**5.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

**6.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**7.** “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

**8.** “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

**9.** “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli Qərarı ləğv edilsin.

**10.** “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 205-10 nömrəli Qərarı ləğv edilsin.

**11.** “Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 215-12 nömrəli Qərarı ləğv edilsin.

**12.** “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”ndə dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 iyun tarixli 263 nömrəli Qərarı ləğv edilsin.

**13.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 390** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği”nin təsdiq edilməsi barədə” 2012-ci il 11 may tarixli 112-12 nömrəli və “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1253 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**5.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

**6.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**7.** “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 may tarixli 112-12 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

**8.** “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

**9.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 392** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbayan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında” 2018-ci il 04 may tarixli 204-17 nömrəli, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1258 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin (aparat) dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin tabeliyində olan qurumlarda çalışan dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğləri” təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin dövlət büdcəsindən maliyyələşən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2019-cu ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**6.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

**7.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar olaraq bu Qərarın 1-ci hissəsində göstərilən hərbi qulluqçuların əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən hesablanmasını və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanunu ilə bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**8.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbayan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında” Azərbayan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarının 1-ci, 2-ci, 3-cü hissələri ləğv edilsin.

**9.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbayan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında” Azərbayan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 04 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbayan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

**10.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

**11.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 394** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1255 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə)

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**5.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

**6.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

**7.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

**8.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarı ləğv edilsin.

**9.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 395** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**"Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1261 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 2, maddə 330, N 3, maddə 613, N 12 (II kitab), maddə 2741) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 6-cı hissəsində "550", "495", "440" rəqəmləri müvafiq olaraq "660", "595", "530" rəqəmləri ilə əvəz edilsin;

*1.2.* aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Dövlət peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış müəllimlərin, baş ustaların və istehsalat təlimi ustalarının aylıq vəzifə maaşı müvafiq olaraq bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, baş ustaların və istehsalat təlimi ustalarının aylıq vəzifə maaşından 25 faiz aşağı, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşı müvafiq olaraq bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşından 10 faiz aşağı müəyyən edilsin.";

*1.3.* həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

*1.4.* həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış baş ustaların aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

*1.5.* həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış istehsalat təlimi ustalarının aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

*1.6.* həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

*1.7.* həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 396** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**"Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 270 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1259 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 270 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 7, maddə 1349; 2018, N 3, maddə 612, N 11, maddə 2432; 2019, N 4, maddə 750) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış müəllimlərin aylıq vəzifə maaşı bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşından 25 faiz aşağı, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşı isə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşından 10 faiz aşağı müəyyən edilsin.";

*1.2.* həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

*1.3.* həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az saytında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**N 398** **Bakı şəhəri, 9 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 3, maddə 191, N 6, maddə 388, N 8, maddə 534; 2002, N 3, maddə 148, N 4 (II kitab), maddə 199; 2003, N 6, maddə 342; 2006, N 5, maddə 474, N 9, maddələr 819, 830; 2008, N 2, maddə 130; 2009, N 7, maddə 604; 2010, N 3, maddə 264; 2012, N 12, maddə 1356; 2016, N 4, maddə 824, N 7, maddə 1343, N 9, maddə 1585, N 11, maddə 1976; 2017, N 2, maddə 306, N 4, maddə 610, N 5, maddə 994) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2.6-cı yarımbəndə "daxili işlər," sözlərindən sonra "xüsusi dövlət mühafizə," sözləri əlavə edilsin.

**2.** 4.1-ci bəndin üçüncü abzasına "Dövlət Sərhəd Xidmətinin" sözlərindən sonra ", Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri və dördüncü abzasına "Dövlət Sərhəd Xidməti" sözlərindən sonra ", Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri əlavə edilsin.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub





**Sentyabrın 9-da Dənizkənarı Milli Parkda "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub.**

AZƏRTAC xəbər verir ki, "Nargis" Nəşriyyat Evi ətraf mühitin qorunması probleminə həsr edilmiş sərgi təşkil edib. Layihə çərçivəsində səkkiz heykəltəraş müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub. Sərgi "Nargis" jurnalının "Ekologiya" mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal, üz qabığında - İDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.

"Nargis" komandası - ətraf mühitə laqeyd olmayan insanlardır. "Nargis" ekoloji brendləri dəstəkləyir, təbii sərvətlərə qənaət edir, eyni zamanda, geniş oxucu kütləsi qazanmış bir nəşr olaraq, hər birimizin Ana-Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

"Make the Earth Smile" adlı ekoloji layihə - insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən 13 instalyasiyadan ibarətdir. Layihənin məqsədi - gənc nəsli müsbət nəticələrlə yekunlanan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə ətraf mühitə kömək etmək üçün hər birimizə tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş "Nargis" kitabçaları paylanıb. 13 rəqəmi təsadüfən seçilməyib - 13 dekabrda "Nargis" jurnalı öz ad gününü qeyd edir.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən Aquavita, Ay Qonşu, "AzərEnerji", "Azersun", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Baku Steel Company", "Caspian Drilling Company Ltd", "Coca-Cola", Dr. Cahid Şahbazov, "Gilan Holding", "Nargis" Publishing House və "Veysəloğlu" Şirkətlər Qrupu ilə birgə yaradıblar.

Açılışa Leyla Əliyeva, "Nargis"in tərəfdaşları və dostları, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, nazirliklərdən nümayəndələr, sənətkarlar və qalereya sahibləri də daxil olmaqla 150-yə yaxın insan qatılıb. Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində "Nargis" Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra başda Ülviyyə Mahmudova olmaqla "Nargis" Nəşriyyat Evinin komandası bulvarda zeytun ağacı əkib.

Bu, "Nargis" komandasının təşkil etdiyi ilk sərgi deyil: bu ilin aprel ayında İstanbulda, "Nargis" Nəşriyyat Evi, jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi eksklüziv fotoşəkillərdən ibarət sərgi təqdim etmişdi, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində "Women, Children and Well-Being" adlı xeyriyyə sərgisi keçirmiş və foto satışından əldə olunan pulun bir hissəsini "Nargis" xeyriyyə fonduna yönəltmişdir.

"Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək. Giriş sərbəstdir.

**AZƏRTAC**















*Altay HƏSƏNOV:*

# Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır

**Sentyabrın 16-dan 22-dək Bakıda bədii gimnastika üzrə dünya çempionatı keçiriləcək. Ölkəmizdə ilk dəfə bədii gimnastika üzrə dünya birinciliyi 2005-ci ildə keçirilib. Birinci dəfə idi ki, Azərbaycan Olimpiya idman növü üzrə dünya çempionatına ev sahibliyi edirdi. Həmin vaxtdan sonra biz dəfələrlə Avropa çempionatları, dünya kuboku yarışları keçirmişik və müəyyən təcrübə toplamışıq.**




AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov sentyabrın 11-də dünya çempionatının açılış mərasiminin yoxlama məşqi zamanı jurnalistlərə müsahibəsində deyib.

A.Həsənov bildirib: "Dünya çempionatına tam hazırıq. İnanırıq ki, çempionat yüksək səviyyədə təşkil olunacaq. Bakıda keçiriləcək yarışa maraq böyükdür. Biletlərin 45 faizi xaricdən alınıb. Dünya çempionatında 61 ölkədən gimnastlar iştirak edəcəklər. İnanıram ki, yarışları izləyən tamaşaçılar bizim komandaya fəal dəstək verəcəklər. Ona görə də media vasitəsilə hamını bu gözəl idman bayramına dəvət edirəm".

Gimnastlarımızın dünya çempionatına hazırlığından danışan Altay Həsənov deyib: "Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır. Bilirsiniz ki, bu dünya çempionatı Tokioda keçiriləcək Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Bu baxımdan çempionatda uğur qazanmaq bizim üçün çox vacibdir".

**AZƏRTAC**

# Sverdlovsk vilayətinin nümayəndə heyəti ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşovun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 11-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

AZƏRTAC

*Lilian Mori Paskie:*

# AŞPA Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır



**Sentyabrın 11-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskie ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Sədr bu səfərin ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəyinə inamını söyləyib. Bildirilib ki, Azərbaycan AŞPA ilə hərtərəfli əlaqələrin dərinləşməsinə böyük önəm verir. 2001-ci ilin yanvarından Avropa Şurasına tamhüquqlu üzv olan Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu prosesində Avropa Şurası və onun qurumlarının dəstəyini hiss edib. Qarşılıqlı əməkdaşlıq istiqamətində ötən dövr ərzində xeyli işlər görülüb. Təəssüf ki, bəzən müəyyən anlaşılmazlıq və ermənilərin məqsədlərinə xidmət edən lobbiçilik fəaliyyəti göstərən bir sıra deputatların qərəzli hərəkətləri ucbatından qurumda bir sıra məsələlərə ikili standartlara yanaşmanın şahidi oluruq. Biz inanırıq ki, gələcəkdə belə xoşagəlməz hallar aradan qalxacaq, müzakirə doğura biləcək məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün normal şərait yaranacaq.

Oqtay Əsədov qeyd edib ki, ölkəmizdə bütün istiqamətlər üzrə islahatlar uğurla davam etdirilir. Azərbaycanda Avropa hüquq sisteminin təməl prinsiplərini özündə əks etdirən qanunvericilik bazası formalaşdırılıb. Ölkədə imzalanmış 65 əfv sərəncamına və 11 amnistiya aktına uyğun olaraq 40 min nəfər məhkum cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıb. Azərbaycan Prezidentinin cari ilin martında imzaladığı əfv fərmanı 431 nəfərə şamil olunub.

Ölkəmizdə etnik və dini tolerantlıq hökm sürməkdədir. Məscidlər, kilsələr, sinaqoqlar dinc fəaliyyət göstərir. Biz gələcəkdə də AŞPA, o cümlədən bütün beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsində maraqlıyıq.

AŞPA prezidenti xanım Lilian Mori Paskie təmsil etdiyi qurumun ölkəmizlə əlaqələrin inkişafında maraqlı olduğunu deyib. Bildirilib ki, azərbaycanlı deputatlar təşkilatın struktur qurumlarında və keçirilən tədbirlərdə daim fəal iştirak edir, müzakirə olunan məsələlərə öz münasibətlərini bildirir, maraq doğuran əhəmiyyətli təkliflərlə çıxış edirlər. Qonaq AŞPA-nın xətti ilə ölkəmizə səfər edən təşkilat nümayəndələrinə yaradılan şəraitə görə Milli Məclisin rəhbərliyinə öz təşəkkürünü bildirib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-da daimi nümayəndə heyətimizin başçısı Səməd Seyidov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

AZƏRTAC

# Azərbaycanın Sverdlovsk vilayəti ilə iqtisadi əməkdaşlığının genişləndirilməsi müzakirə olunub



**Sentyabrın 11-də İqtisadiyyat naziri Şahin Mustafayev Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Ş.Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşlərinin dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirdiyini deyib.

Vurğulayıb ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında ticarət dövriyyəsinin həcmində davamlı artım müşahidə edilir. Rusiyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 50 faizədək hissəsi Azərbaycanın payına düşür. Ötən il Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 19 faiz, bu ilin yanvar-iyul ayları ərzində isə 23 faiz artıb. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir. Təkcə ötən il Azərbaycandan Rusiyaya ixrac edilən meyvə-tərəvəzin həcmi 550 min tondan çox olub və ixrac həcminin 1 milyon tona çatdırılması imkanları mövcuddur.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri ilə sıx əməkdaşlıq edir və Sverdlovsk vilayəti Azərbaycan üçün vacib tərəfdaşdır. Ötən il Azərbaycanın Sverdlovsk vilayəti ilə ticarət dövriyyəsi 83 faiz artaraq 95 milyon dollara çatıb. Cari ildə bu göstəricinin 100 milyon dollardan çox olması hədəflənir.

Diqqətə çatdırılıb ki, bu ilin iyulunda Yekaterinburqda Azərbaycan Şərab Evinin açılması qarşılıqlı əməkdaşlığın real nəticəsidir. Sentyabrın 12-də Bakıda keçiriləcək Azərbaycan-Rusiya biznes forumunda Sverdlovsk vilayətindən rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edəcək. Biznes forum çərçivəsində Azərbaycan və Rusiya şirkətləri arasında kənd təsərrüatı məhsullarının ixracının təşviqi, şərab ixracının dəstəklənməsi və sair barədə sənədlərin imzalanması nəzərdə tutulur.

İqtisadiyyat naziri ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının Rusiyaya, o cümlədən Sverdlovsk vilayətinə ixracı, maşınqayırma, metallurgiya, kimya, yüngül sənaye, İKT və sair sahələrdə fəaliyyət göstərən şirkətlərin Azərbaycanın sənaye parklarında iştirakı, kiçik və orta sahibkarlıq, nəqliyyat-logistika, səhiyyə, turizm, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi potensialını diqqətə çatdırıb, maşınqayırma və elektrik avadanlıqlarının istehsalı sahəsində ixtisaslaşmış Rusiya şirkəti ilə Azərbaycanda qaldırıcı kran və avadanlıqların istehsalı sahəsində birgə müəssisənin yaradılmasını təklif edib.

Rusiyanın Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşev Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, ölkəmizin Rusiya və onun federal subyektləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini, bu sahədə işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. Y.Kuyvaşev iqtisadiyyatın bir sıra sahələrində əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb. Qubernator 23-dən çox ali təhsil müəssisəsinin yerləşdiyi Sverdlovsk vilayəti ilə Azərbaycan arasında elmi-texniki və humanitar sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını vurğulayıb.

Sonra Azərbaycanın biznes mühiti və investisiya imkanları, sənaye parkları, Sverdlovsk vilayətinin sənaye potensialı, görüşdə iştirak edən Azərbaycan və Rusiya şirkətləri arasında əlaqələrin inkişafı imkanları barədə məlumat verilib.

Görüşdə Azərbaycan və Rusiya Federasiyasının Sverdlovsk vilayəti arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri müzakirə olunub.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Sverdlovsk vilayəti Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi haqqında Saziş imzalanıb. Sənədi Azərbaycan İqtisadiyyat naziri Ş.Mustafayev və Sverdlovsk vilayətinin qubernatoru Y.Kuyvaşev imzalayıblar.

Görüşdə, həmçinin Bakı Dövlət Universiteti və Rusiyanın birinci Prezidenti B.N.Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlığa dair memorandum, Azərbaycan Dillər Universiteti və Ural Federal Universiteti arasında isə əməkdaşlığa dair müqavilə imzalanıb.

Tədbir iş adamları arasında müzakirələrlə davam edib.

AZƏRTAC

# "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib



**Sentyabrın 11-də Bakıda Ana Vətən Partiyasının təşəbbüsü ilə "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib.**

AZƏRTAC xəbər verir ki, dəyirmi masada Azərbaycanda fəaliyyət göstərən bir sıra siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, media təmsilçiləri və siyasi ekspertlər iştirak ediblər.

Tədbiri açan Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı deyib ki, müəyyən səbəb və vasitələrlə Azərbaycandan xaricə gedən, anarxist mövqe nümayiş etdirən, özlərini "mühacir müxalifət" adlandıran səbatsız, zəif iradəli insanlar dövlətimizə qarşı çıxmaqla insanlarda ümidsizlik mühiti yaratmağa çalışırlar. Onlar əslində Ermənistanın dövlət maraqlarına xidmət edirlər. Biz öz iradəmizi ortalığa qoymalı, Azərbaycan dövlətçiliyinin yanında olmalıyıq.

Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi, Baş Nazirin müavini Əli Əhmədov çıxışında bildirib ki, təcrübədə ayrı-ayrı ölkələrin daxili işlərinə qarışmaq halları olub. Bu hallara müəyyən siyasi proseslər və seçkilər zamanı daha çox rast gəlinir. Hər hansı ölkədə cərəyan edən siyasi proseslər ancaq həmin ölkənin vətəndaşlarının iradəsi ilə reallaşdırıla bilər. Bütün ölkələrdə bu normalar mövcuddur.

Əli Əhmədov vurğulayıb ki, istənilən siyasi partiya ölkənin maraqlarını üstün tutmalıdır. Xaricdə mühacir statusu alan bəzi şəxslər Azərbaycanda siyasi proseslərdə yaxından iştirak etməyə cəhd göstərirlər. Həmin şəxslər asanlıqla xarici xüsusi xidmət orqanları tərəfindən ələ alına bilər. Ona görə də onların siyasi proseslərə müdaxiləsi təhlükəlidir. Onların əsas işi Azərbaycan dövlətini, Prezidentini nüfuzdan salmaqdır. Çünki Azərbaycan güclənib, qüdrətlənib.

YAP sədrinin müavini-icra katibi deyib ki, sağlam düşüncəli qüvvələrin milli maraqlar naminə birləşməsi çox önəmlidir. Hakimiyyət iddiasında olan partiyalar xalqın marağından çıxış etməlidir, hansısa xarici qüvvənin yox.

Sonra Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa, Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, "Azəri Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, hüquq müdafiəçisi Novella Cəfəroğlu, Real televiziyasının rəhbəri Mirşahin Ağayev, "Teleqraf holding"in rəhbəri Aynur Camalqızı və digər siyasi partiyaların, QHT-lərin rəhbərləri, ekspertlər, media təmsilçiləri mövzu ilə bağlı fikirlərini bildiriblər.

Diskussiya şəraitində keçən müzakirələrdən sonra birgə bəyanat qəbul edilib.

Bəyanatda deyilir: "Biz, "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda təşkil edilmiş dəyirmi masanın iştirakçıları olan siyasi partiyaların, vətəndaş cəmiyyətinin təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlər bu gün beynəlxalq aləmdə, o cümlədən regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, taleyüklü məsələlərdə milli həmrəyliyimizin təzahürü kimi bərqərar edilməsi, xalqımızın həyat səviyyəsinin, dövlətimizin iqtisadi və hərbi potensialının, beynəlxalq aləmdə nüfuzunun və təsir imkanlarının daha da gücləndirilməsi məqsədilə aşağıdakıları bəyan edirik:

- Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qısa müddətdə işğaldan azad edilməsi istiqamətində hərb yolu da daxil olmaqla atılacaq addımları birmənalı şəkildə müdafiə edəcəyimizi bəyan edir;
- siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın ordu quruculuğuna və silahlı qüvvələrimizə hərtərəfli və birmənalı dəstəyinin zəruriliyini ifadə edir;
- ölkədə həyata keçiriləcək islahatları dəstəkləyir, ardıcıl və davamlı olmasını vacib sayır;
- vətəndaş sülhü və milli həmrəylik istiqamətində hər bir fəaliyyətin göstərilməsinin zəruriliyini nəzərə alaraq, siyasi mübarizədə etik normaları gözləməyə, milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməməyə, eyni zamanda, davamlı dialoq mühitinin yaradılmasına, sosial şəbəkələrdə, o cümlədən kütləvi informasiya vasitələrində təhqir, böhtan və şayiə xarakterli məlumatlar yaymamağa çağırır;
- respublikamızda siyasi proseslərə, beynəlxalq hüquqazidd hər hansı xarici müdaxilənin yolverilməz olduğunu xüsusi vurğulayır və belə müdaxilə cəhdlərinə qarşı birgə fəaliyyəti zəruri saydığımızı bildiririk".

AZƏRTAC

# Avropa Şurası Parlament Assambleyasının prezidenti Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının prezidenti Lilian Mori Paske sentyabrın 11-də Şəhidlər xiyabanına gedərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb.**

AZƏRTAC xəbər verir ki, sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

AZƏRTAC

*Mariya Zaxarova:*

# Azərbaycanda insanları dil üstünlüyü zəminində qarşı-qarşıya gətirmək cəhdləri yoxdur

**Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada çox yüksək qiymətləndirirlər.**

AZƏRTAC xəbər verir ki, bu fikri "Moskva-Bakı" portalına Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.

M.Zaxarova deyib: "Biz Azərbaycan Respublikasını dostu olan ölkənin, xalqın dili kimi rus dilinə Azərbaycanda həm maraq, həm də həqiqi sevgi olduğunu görürük. Mənə elə gəlir ki, bu, həm də özünün bir ilham mənbəyinə olan münasibətdir. Bu cür münasibət bizim mədəniyyətlərin xüsusi vəhdəti ilə bağlıdır, o səviyyədə ki, onları ayırmaq nəinki lazım deyil, həm də zərərlidir. Dili, öz cəmiyyətini və mədəniyyətini kütləvi informasiya vasitələri ilə qarşılıqlı olaraq zənginləşdirmək isə (zənnimcə, bu, əlverişli və düzgündür), həm doğru, həm də olduqca vacibdir".

Rusiya XİN-in xüsusi nümayəndəsi Azərbaycan KİV-lərində rusdilli seqmentin bir neçə istiqamətini vurğulayıb: "Bu, rus dilində milli, habelə həmvətənlərin və bilavasitə Rusiyada qeydiyyata alınmış və Azərbaycanda müvafiq olaraq rus dilində fəaliyyət göstərən KİV-lərdən ibarətdir. Qeyd etmək istərdim ki, onlar Azərbaycan auditoriyasında böyük populyarlıq qazanıblar. Rus dilində milli kütləvi informasiya vasitələrindən və həmvətənlərimizin KİV-lərindən danışdıqda təxminən 20 nəşri və 15 informasiya agentliyini fərqləndirmək olar. Bu, yaxşı rəqəmdir və göstərilən məhsula olan tələbatın göstəricisidir".

M.Zaxarovanın fikrincə, dildən söhbət getdikdə, təəssüf ki, hər bir ölkədə həm də siyasi məqam ortaya çıxır. Çünki milli siyasət və milli mədəniyyət məsələləri də müşahidə olunur. Rusiya XİN-in sözçüsü vurğulayıb: "Müdriklik ondadır ki, siyasi aspekt də daxil olmaqla cəmiyyətdə olan bu tendensiyalar qarşı-qarşıya gətirilməsin, əksinə onların yaxınlaşması, xarakterik əlamətlərinin vəhdəti ilə məşğul olmaq mümkün olsun. Cəmiyyət, milli mədəniyyət həmişə bu xarakterik cəhətlər üzərində qurulur, yaxud onlara söykənir. Mənə elə gəlir ki, Azərbaycanda bu məsələ ilə bağlı hər şey harmonik şəkildə baş verir. Burada əks mövqe, insanların dil üstünlüyü zəminində qarşı-qarşıya qoyulması, yaxud KİV-lərin seçimində dil amilinə üstünlük verilməsi halları yoxdur. Əksinə, bir ahəng var. Zənnimcə bu, müdrikliyin əlamətidir, belə ki, öz informasiya, mədəniyyət məkanını zənginləşdirmək ciddi problemlərin profilaktikası, gələcəkdə onlara yol verilməməsi imkanı deməkdir. Biz Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada yüksək qiymətləndiririk".

AZƏRTAC

# Azərbaycanda məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar Avropa Şurası tərəfindən təqdir edilir

**Sentyabrın 11-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verildiyini xüsusi vurğulayaraq müstəqilliyin bərpasından sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlərdən danışıb, Avropa Şurası ilə münasibətlərin tarixinə nəzər salıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən Baş prokuror müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması ilə əlaqədar dövlətimizin başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə bağlı Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişikliyin edildiyini, Məcəllədə indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməlinin dekriminallaşdırılması, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsaslarının xeyli dərəcədə genişləndirilərək, 152 növ cinayətin sanksiyasına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması barədə məlumat verib, bu humanistləşdirmə tədbirlərinin bu günədək 10 minə yaxın şəxsə şamil olunduğunu bildirib.

Həmin tədbirlərin davamı olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlərin görülməsi, cəzaların icrasında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunmaqla elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidmətinin yaradıldığı qeyd olunub.

Bundan başqa, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların davamı olan Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı barədə məlumat verən Baş prokuror ölkə məhkəmələrinin fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, elektron xidmətlərin göstərilməsi, hakimlərin sayının artırılması və sosial müdafiəsinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyəti subyektlərinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, eləcə də cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi istiqamətində həmin Fərmanla verilmiş tövsiyə və tapşırıqlar barədə danışıb.

Baş prokuror qeyd edib ki, həmin tövsiyə və tapşırıqların icrası ilə əlaqədar Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinə 400-ə yaxın dəyişikliyin edilməsi haqqında qanun layihələri hazırlanıb.

Görüşdə xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olması, bir milyondan artıq qaçqın və məcburi köçkünün doğma yurdlarından didərgin düşdüyünü qeyd edən Baş prokuror işğala məruz qalmış ərazilərimizdə yaradılmış qondarma "məhkəmələr" tərəfindən Dilqəm Əsgərovun və Şahbaz Quliyevin doğma torpağında casus adı ilə həbs edilərək əsirlikdə saxlanılmasının insan hüquqlarının pozuntusunun bariz nümunəsi olduğunu qonağın diqqətinə çatdırıb.

Baş Prokurorluğun insan hüquqları və qanunun aliliyi sahəsində Avropa Şurası ilə əməkdaşlığa hər zaman hazır olduğunu bildirən Zakir Qaralov cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində atılan addımlar barədə məlumat verib, bu işdə həm əhali, həm beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən və dünyada artıq Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd edib.

Ölkəmizlə bağlı xoş təəssüratlarından danışan Xristos Cakumopolos, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri qismində Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların Avropa Şurası tərəfindən təqdir olunduğunu və dəstəkləndiyini diqqətə çatdırıb. O, Avropa Şurası ekspertlərinin azərbaycanlı həmkarları ilə bundan sonra da sıx və əlaqəli şəkildə işləmək niyyətini ifadə edərək, korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən işləri yüksək qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər müzakirə edilib.

**AZƏRTAC**

# Azərbaycanın Energetika naziri OPEC-in Baş katibi və rusiyalı həmkarı ilə neft bazarını müzakirə edib

**Əbu-Dabidə səfərdə olan Energetika naziri Pərviz Şahbazov OPEC-in Baş katibi Məhəmməd Sanusi Barkindo və Rusiyanın Energetika naziri Aleksandr Novakla görüşüb.**




Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə dünya neft bazarının son vəziyyəti və inkişaf meylləri, neftin qiymətinə və neftə qlobal tələbatda artıma təsir edən amillər, "OPEC plus" ölkələri üzrə öhdəliklərin icra göstəriciləri və eləcə də bu format çərçivəsində Azərbaycanla əməkdaşlıq məsələləri müzakirə edilib. Neft bazarında sabitliyin qərarlaşdığı vurğulanaraq bu prosesdə "OPEC plus" iştirakçılarının rolu yüksək qiymətləndirilib. "OPEC plus" əməkdaşlığı qiymət sabitliyinin davamlığını təmin edə biləcək uğurlu və çevik tənzimləmə mexanizmi kimi qeyd olunub.

P.Şahbazov Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin İdarə Heyətinin sədri Mohammad Abunayyan ilə də görüşüb. Görüşdə şirkətin külək enerji sahəsində əməkdaşlığa dair təklifləri ilə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Ölkəmiz Rusiyanın və dünyanın müxtəlif şəhərləri ilə mədəniyyət sahəsində müxtəlif layihələr reallaşdırır



**Sentyabrın 11-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Sverdlovsk vilayətinin Mədəniyyət naziri Svetlana Uçaykina ilə görüşüb.**

Görüşdə Sverdlovsk vilayətinin Beynəlxalq və xarici iqtisadi əlaqələr nazirinin müavini İvan Detçenya, vilayətin rəmzləri üzrə Qanunvericilik Komissiyasının sədri, deputat Mixail Zubarev və Sırset şəhər dairəsinin rəhbəri Dmitri Nikovski iştirak edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Əbülfəs Qarayev Azərbaycanın Sverdlovsk vilayəti ilə əlaqələrində mədəniyyət sahəsinin də yer almasından məmnunluğunu bildirib. Diqqətə çatdırıb ki, ölkəmiz Rusiyanın və dünyanın müxtəlif şəhərləri ilə mədəniyyət sahəsində müxtəlif layihələr reallaşdırır. Teatr, musiqi, rəssamlıq və digər sahələrdə təcrübə mübadiləsi həyata keçirilir. Yaradıcı gənclər birgə layihələrdə yaxından iştirak edirlər. Birgə tamaşalar, dirijorların orkestrlərlə çıxışları, aktyor və musiqiçilərin səfərləri bu əməkdaşlıq sahəsində mədəniyyətləri bir-birinə daha da yaxınlaşdırır.

Nazir ölkəmizin zəngin mədəniyyəti haqqında qonaqlara məlumat verib. Bildirib ki, ölkəmizdə mədəni irsin qorunması və təbliği istiqamətində beynəlxalq əlaqələrin qurulmasına xüsusi önəm verilir.

Qarşılıqlı əlaqələrin perspektivlərindən söz açan Ə.Qarayev vurğulayıb ki, Azərbaycanda musiqinin müxtəlif janrlarını əhatə edən beynəlxalq festivallar keçirilir. Nazir Sverdlovsk vilayətinin incəsənət xadimlərini bu festivallarda iştiraka dəvət etdi. Bildirib ki, 18 sentyabr - Milli Musiqi Günündə Bakıda XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı işə başlayacaq. Festivalda dünyanın bir çox ölkələrindən tanınmış musiqiçilər iştirak edəcək.

Sverdlovsk vilayətinin Mədəniyyət naziri Svetlana Uçaykina səmimi qəbula görə nazirə minnətdarlığını bildirib. Vurğulayıb ki, Prezident İlham Əliyev bu gün Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən də Sverdlovsk vilayəti ilə əlaqələrin genişlənməsindən məmnunluq ifadə edilib: "Bu əlaqələr sırasında mədəniyyət sahəsinin də yer alması bizləri çox sevindirir. İstərdik ki, Azərbaycan xalqı bizi təkcə sənaye mərkəzi kimi deyil, həm də mədəniyyət mərkəzi olaraq tanısın. Bizim Azərbaycanla musiqi əlaqələrimiz həmişə olub və qarşılıqlı şəkildə bu sahədə əməkdaşlıq etmişik. Bu əlaqələri daha da genişləndirmək istəyirik. Bir neçə gün əvvəl "Yekaterinburq Ekspo" tədbirinin təntənəli açılışında Ural Akademik Filarmoniyasının orkestri ilə birgə Azərbaycanın Xalq artisti Yusif Eyvazov və Rusiyanın Xalq artisti Anna Netrebko da səhnəyə çıxdılar. Tamaşaçılar onların çıxışlarını böyük sevgi və alqış ilə qarşıladılar".

Rusiyalı nazir Azərbaycanla mədəni əlaqələrin genişlənməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Söhbət zamanı müvafiq təhsil ocaqları arasında əməkdaşlığın genişləndirilməsi, o cümlədən teatr sahəsində çalışan gənc kadrların mübadiləsi, tədris ocaqlarının qarşılıqlı əməkdaşlıq imkanlarının nəzərdə keçirilməsi məsələləri müzakirə edilib. Keçiriləcək görüşlərin, ustad dərslərinin bu münasibətlərin inkişafına təkan verəcəyi vurğulanıb.

Daha sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Avropa Şurasının yaranmasının 70 illiyi ilə əlaqədar Bakıda dəyirmi masa keçirilib

**Sentyabrın 11-də Azərbaycan-Fransız Universitetində AŞPA-nın prezidenti Lilian Mori Paskienin iştirakı ilə Avropa Şurasının yaranmasının 70 illik yubileyinə həsr olunan dəyirmi masa keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Lilian Mori Paskie çıxış edərək əsas prinsipləri insan hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi olan bu təşkilata Azərbaycan Respublikasının 2001-ci ildən tamhüquqlu üzv qəbul edildiyini xatırladıb. O deyib ki, Azərbaycanın və digər ölkələrin Avropa Şurası Parlament Assambleyasına qoşulması Avropada geniş vəhdətə nail olunmasında mühüm rol oynayıb. Ona görə də AŞPA-nın 70 illiyi ilə bağlı tədbir Azərbaycanda keçirilir. Qurumun rəhbəri yaradılan bu imkana görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. AŞPA prezidenti təşkilata üzv ölkələrin siyasi əməkdaşlığı və dialoqu inkişaf etdirməsinin vacib olduğunu deyib.

İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira Süleymanova Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsindən bəhs edib. O bildirib ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv olduqdan sonra məhkəmə-hüquq sistemində, insan hüquqlarının qorunması sahəsində mühüm işlər görüb. Bundan başqa, mətbuat və söz azadlığının qorunması sahəsində, korrupsiyaya qarşı mübarizədə islahatlar aparılıb. Ölkəmiz onlarla beynəlxalq sənədə qoşulub.

Qeyd edək ki, tədbirdə Avropa Şurası Katibliyinin Hüquqi məsələlər və qanunun aliliyi üzrə baş direktoru Kristos Giakoumopoulos, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Ramin Qurbanov, Avropa Şurası Bakı ofisinin rəhbəri Zoltan Hernyes və digər şəxslər iştirak ediblər.

Dəyirmi masa müzakirələrlə davam edib.

**AZƏRTAC**

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

**Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara işlərində uğurlar diləyib.

Komitə sədri bildirib ki, iclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunur.

Məlumat verilib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2-ci maddəsinə edilən dəyişiklikdə təklif olunur ki, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin. Eyni məzmunlu düzəlişlər bu qanunun 7-ci maddəsində və "Əmək pensiyaları haqqında" qanunun 21.2.3-cü maddəsində də nəzərdə tutulub. Həmçinin "hərbi qulluqçular" anlayışının məzmunu yenilənərək "Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət edən hərbi rütbəli şəxslər" kimi verilir.

Diqqətə çatdırılıb ki, layihə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 12 oktyabr tarixli qanunun icrasını təmin etmək məqsədilə hazırlanıb. Həmin qanunda hərbi qulluqçuların yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrində deyil, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında da (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət keçməsi müəyyən olunub. Təklif edilən dəyişikliklər belə qurumların hərbi qulluqçularının dövlət icbari şəxsi sığortası və pensiya təminatının əvvəlki qaydada saxlanılmasına xidmət edir.

Sonra Ziyafət Əsgərov bildirib ki, cari ilin yaz və növbədənkənar sessiyalarında komitənin 10 iclası keçirilib, 17 qanun layihəsi plenar iclasa tövsiyə olunub və qəbul edilib. Payız sessiyasında "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və digər qanun layihələrinə baxılması nəzərdə tutulub.

İclasda çıxış edən komitə üzvləri Elman Məmmədov, Aqil Abbas, Hikmət Məmmədov, Fərəc Quliyev qanunlara edilən dəyişiklikləri məqbul hesab ediblər. Deputatlar dövlət tərəfindən hərbi sahəyə, hərbi qulluqçulara göstərilən diqqət və qayğını təqdir ediblər. Ordumuzun döyüş ruhunun yüksək olduğunu söyləyiblər.

Müzakirələrdən sonra "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**AZƏRTAC**

# Fermerlər mineral gübrələrin güzəştli şərtlərlə satışından yararlanacaq

**Mineral gübrələrin 70% güzəştlə ucqar kənd və qəsəbələrdə səyyar satış xidmətinə start verilməsi və cari ildə pambıq yığımına həsr olunmuş mətbuat konfransı keçirilib.**





Mətbuat konfransında çıxış edən "Aqrolizinq" ASC-nin İdarə Heyətinin sədri Elmin Rəhmanov fermerlərin mineral gübrələrlə təminatı ilə bağlı fəaliyyətin davam etdirildiyini qeyd edib. Cəmiyyətin sədri bildirib ki, yanvar-fevral aylarında görülən işlərin davamı olaraq regionlarda mineral gübrələrin səyyar satışı həyata keçiriləcək. Səyyar satışa ilk olaraq sentyabr ayının 10-da Şəmkir rayonun Ələsgərli kəndindən start veriləcək. Ələsgərli və bu kəndə yaxın bütün ətraf kəndlərin fermerləri səyyar satışdan yararlana bilərlər. "Aqrolizinq" ASC qarşıya qoyulan məqsədlərə nail olmaq üçün üç istiqamətdə həftə ərzində 15 bölgədə mineral gübrələrin səyyar satışını təşkil edəcək. Bununla da mövsümün sonuna kimi 800-dən çox kənd və qəsəbə səyyar satış xidmətindən yararlanacaq: "Ölkədə mineral gübrənin satışı dövlət dəstəyi hesabına baş tutur. Bu gübrələr vətəndaşlara 70% güzəştlə satılır və satış həm "Aqrolizinq" ASC, həm də lisenziya əsasında fəaliyyət göstərən özəl şirkətlər tərəfindən aparılır. Səyyar satış zamanı qaydalar olduğu kimi qalır, yəni vətəndaşlar tələb olunan sənədləri təqdim etməklə 70%-lik güzəştdən yararlanaraq mineral gübrəni əldə edirlər. Təbii ki, səyyar satışın təşkili gübrələrin alışı zamanı vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşısının alınmasına kömək edəcək və vətəndaşlara cəmiyyətin əlçatanlığını, yaxınlığını təmin edərək, vətəndaş məmnuniyyətinə nail olmağımıza səbəb olacaq".

Elmin Rəhmanov pambıq sahələrində yığıma başlamaq üçün son hazırlıq işlərinə də toxunub. Bildirilib ki, hazırda Cəmiyyətin rayon bölmələrinin istifadəsində olan pambıqyığan kombaynlar yığıma hazırlanır. Belə ki, növbəti həftədən etibarən "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsində olan müasir tipli 123 kombayn vasitəsi ilə yığım həyata keçiriləcək. Eyni zamanda, pambıqçılıq sahəsində fəaliyyət göstərən iri şirkətlər tərəfindən də 288 pambıqyığan kombayn yığıma cəlb olunacaq: "Hesab edirik ki, hazırda istifadədə olan 411 kombayn vasitəsi ilə 100 000 hektardan çox olan pambıq sahəsində yığımın təşkil olunmasında heç bir çətinlik yaşanmayacaq. Qeyd edim ki, cari ildə Azərbaycanda 21 rayonda 100 112 hektar sahədə pambıq əkini həyata keçirilib ki, bunun 96 241 hektarı hüquqi şəxslərə, 3 871 hektarı fiziki şəxslərə məxsusdur".

Cəmiyyətin sədri əlavə edib ki, yığım prosesi ilə yanaşı, məhsulun daşınması da vacib amillərdəndir. Bunun üçün "Aqrolizinq" ASC tərəfindən 125 ədəd "Belorus-80X" tipli traktor, 220 ədəd qoşqu vasitəsi ilə yığılmış pambığın operativ şəkildə itkisiz daşınması həyata keçiriləcək: Pambıqçılıqla məşğul olan fermerlər Cəmiyyətimizin xidmətlərindən yüksək səviyyədə yararlanmaları üçün məlumatlandırılıblar. Onlar bizə müraciət etməklə xidmətlərimizdən faydalana bilərlər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Əqli Mülkiyyət Agentliyinin nümayəndə heyəti Qazaxıstanda keçirilən Diplomatik konfransda iştirak edib

**Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un imzalanmasına həsr olunan Diplomatik konfrans keçirilib.**

Beynəlxalq tədbirdə Avrasiya Patent Təşkilatının (APT) üzv dövlətlərin nümayəndə heyətləri, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının, Avropa İttifaqının Əqli Mülkiyyət İdarəsinin, Avropa Patent İdarəsinin nümayəndələri, həmçinin əqli mülkiyyət sahəsi üzrə beynəlxalq mütəxəssislər iştirak ediblər. Diplomatik konfrans Konvensiyanın imzalanmasının 25-ci ildönümü günündə təşkil olunub. Ölkəmizi tədbirdə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, tədbirin açılış mərasimində Avrasiya Patent İdarəsinin prezidenti Saule Tlevlessova çıxış edib. O, konfransın təşkilində göstərdiyi köməyə görə Qazaxıstan Respublikasına təşəkkürünü bildirib, APT-yə üzv dövlətlərin iqtisadiyyatı üçün əqli mülkiyyətin əhəmiyyətini qeyd edərək, sənaye nümunələrinin də daxil olduğu kreativ sənayenin bu dövlətlərin ÜDM-də payının təqribən 3 faiz olduğunu vurğulayıb.

Sonra ÜƏMT-nin Baş direktoru Frensis Qarrinin videomüraciəti təqdim edilib. Konfrans iştirakçılarını və qonaqları Avrasiya Patent Konvensiyasının qəbul edilməsinin 25 illiyi münasibətilə təbrik edən F.Qarri vahid patent əsasında effektiv patent qorunması sisteminin yaradılmasında Konvensiyanın əhəmiyyətini vurğulayaraq, uzun illər davam edən tərəfdaşlığa və diplomatik konfransın təşkilinə görə APT-yə təşəkkürünü bildirib.

Daha sonra konfransın prosedur qaydaları qəbul edilib. Qazaxıstanın Ədliyyə naziri Marat Beketayev Diplomatik konfransın sədri, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov və Rusiya Federasiyasının Əqli Mülkiyyət üzrə Federal Xidmətinin rəhbəri Qriqori İvliyev isə sədr müavinləri seçilib.

Konfransda "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un mətni və diplomatik konfransın yekun aktı qəbul edilib. Sonra nümayəndə heyətlərinin mövcud səlahiyyətlərinə uyğun olaraq Protokol Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Ermənistan nümayəndələri tərəfindən imzalanıb. Protokolu Azərbaycan Respublikası Hökuməti adından Kamran İmanov imzalayıb.

Sənaye nümunələrinin mühafizəsinə dair Protokolun qəbulu bütün üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib, konfrans iştirakçıları Protokolun potensialını Avrasiya patent sisteminin inkişafı baxımından yüksək qiymətləndirib və bunun əqli mülkiyyət sahəsində yeni mərhələ olacağına əminliklərini bildiriblər.



Konfransda çıxış edən Kamran İmanov tədbir iştirakçılarını və APT-nin kollektivini Avrasiya Patent Konvensiyasının qəbul edilməsinin 25 illiyi münasibətilə təbrik edib, təşkilatın prezidenti olduğu müddətdə onun inkişafına verdiyi böyük töhfəyə görə S.Tlevlesovaya xüsusi təşəkkürünü bildirib. O, Protokolun imzalanmasını təşkilatın nüfuzunun artırılması kimi qiymətləndirərək, 25 il ərzində APT-nin güclü regional təşkilata çevrildiyini, ixtiraçılar tərəfindən ona marağın hər il artdığını vurğulayıb və hazırda Azərbaycan Respublikası ərazisində 1304 Avrasiya patentinin qüvvədə olduğunu, 39 Azərbaycan patentinin isə APT-də qeydiyyata alındığını diqqətə çatdırıb.

Agentliyin rəhbəri qeyd edib ki, hər bir ölkə öz təkrarolunmaz simasına görə xalqına borcludur, millətin böyüklüyü isə ayrı-ayrı fərdlərin böyüklüyünü və ləyaqətini təşkil edən həmin keyfiyyətlərdən formalaşır. Elə bu cür də əqli mülkiyyət milli müəlliflərin və ixtiraçıların kreativliyindən yaranıb. Məhz unikal təbii insan resursları olaraq yaradıcılıq və yenilikçilik öz nəticələri ilə nəinki ayrı-ayrı fərdlərin nailiyyətlərini təcəssüm etdirir, onlar hər şeydən öncə milli mədəni irs və intellekt xəzinəsini zənginləşdirən yeganə mənbədir.

Onun çıxışında daha sonra vurğulanıb ki, ölkənin innovativ inkişaf yolu, iqtisadi islahatların səmərəliliyinin təmin edilməsi əqli mülkiyyət sisteminin inkişafı olmadan mümkün deyil. Məhz bu səbəbdən milli əqli mülkiyyət sistemi qarşısında duran vəzifələr ölkənin innovativ, islahatçı siyasəti ilə müəyyən olunur və ölkədə dəyişikliklərin həyata keçirilməsinə xidmət edir. Müasir innovativ iqtisadiyyatda innovasiya əsas istehsal amili qismində çıxış edərək resurs kimi intellektual kapitala əsaslanır və sərvət mənbəyi kimi texnoloji, intellektual və informativ rentanı təmin edir.

Çıxışının sonunda Kamran İmanov Avrasiya Patent Təşkilatına fəaliyyətində uğurlar arzulayıb və Protokolun imzalanmasının ortaq məqsədə - ümumilikdə əqli mülkiyyətin inkişafına, xüsusilə də üzv dövlətlərin xalqlarının nümayəndələrinin ixtiraçılıq və yaradıcılıq fəaliyyətinə xidmət edəcəyinə əminliyini bildirib.

Qeyd etmək lazımdır ki, "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol" sənaye nümunəsi üçün vahid Avrasiya patenti əsasında sənaye nümunəsinin 8 üzv ölkə ərazisində qorunması məqsədilə qəbul edilib. Protokol sənaye mülkiyyəti obyektlərinin Avrasiya mühafizəsi sisteminin genişləndirilməsini, onu imzalayan bütün dövlətlərin ərazisində qüvvədə olan vahid Avrasiya patenti əsasında sənaye nümunələrinin mühafizəsi üzrə dövlətlərarası sistemin yaradılmasını, həmin ölkələrin daxili bazarının inkişafını, ticarət və investisiya fəaliyyətinin inkişafı üçün onların ərazilərinin cəlbediciliyinin artırılmasını nəzərdə tutur.

Protokolun ümumi mətninin, həmçinin xüsusi əhəmiyyətə malik olan 3, 11 və 14-cü maddələrinin yenidən redaktəsi zamanı Azərbaycan tərəfinin rəy və təklifləri əsas götürülüb. Məsələn, 3-cü maddəyə görə, razılığa gələn dövlətlərin müvafiq səlahiyyətli dövlət orqanlarının razılığı olmadan rəsmi rəmzləri (o cümlədən dövlət rəmzlərini və nişanlarını) təkrarlayan və ya təqlid edən, mədəni (o cümlədən etnik və dini) irslə əlaqədar obyektlərin təsviri və ya onların tanınan hissələrini özündə əks etdirən, Razılığa gələn dövlətlərin maraqlarına toxunan bu cür hallərə sənaye nümunəsi kimi hüquqi mühafizə verilmir. 11-ci maddə isə sənaye nümunəsinə Avrasiya patentinin etibarsız hesab olunması qaydasını müəyyən edir və milli patent idarəsi tərəfindən Avrasiya patentinin etibarsız hesab edilməsi ilə bağlı müraciət edilməsi imkanı verir. 14-cü maddədə sənaye nümunələrinə Avrasiya iddia sənədinə baxılması zamanı dərc edilmiş iddia sənədinə etiraz verilməsi ilə bağlı müddəalar əksini tapıb.

Qeyd olunan müddəalar bizə ölkəmizin maraqlarına toxunan hər hansı sənaye nümunəsinə Avrasiya Patent Təşkilatına üzv dövlətlərin ərazisində qorunma verilməsinə qarşı çıxmaq, eyni zamanda bu cür sənaye nümunəsini ölkəmizin ərazisində qorumamaq imkanı yaradır.

Ümumilikdə Protokol Azərbaycan xalqının mədəni irsinin hər hansı formada sənaye nümunəsi kimi mənimsənilməsinin qarşısının alınmasına şərait yaradır. Həmçinin vahid Avrasiya patenti əsasında qorunan sənaye nümunəsinin mühafizəsi ilə bağlı rüsum və ödənişlər ölkəyə daxil olan gəlirlərin həcminin artmasında müəyyən yer tutacaq. Eyni zamanda, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri vahid iddia sənədi əsasında və vahid orqana rüsum və ödənişlər etməklə 8 üzv ölkə ərazisində onlara məxsus sənaye nümunələrinin hüquqi mühafizəsinə və daha asan marketinqinə nail olacaqlar.

Protokol qüvvəyə mindikdən sonra sənaye nümunəsinə Avrasiya patenti Protokolu ratifikasiya edən və ya ona qoşulan APT-nin üzvü olan bütün dövlətlərin ərazisində qüvvədə olacaq. Bir neçə dövlətin ərazisində qüvvədə olan patenti artıq "vahid pəncərə" formatında almaq imkanı yaranacaq və beləliklə, sənaye nümunəsinə Avrasiya patentinin alınması üçün iddia sənədini vahid prosedur rüsumunu ödəməklə bilavasitə Avrasiya Patent İdarəsinə vermək mümkün olacaq. Həmçinin sənaye nümunəsi barədə Avrasiya patentinə iddia sənədi milli iddia sənədinə çevrilə bilər. Bununla, ölkəmizin əqli mülkiyyət sahibləri, işgüzar dairələrin nümayəndələri, sahibkarlar razılığa gələn dövlətlərin ərazilərində öz sənaye nümunələrinə hüquqi mühafizə əldə edəcəklər. Protokolun depozitarisi isə ÜƏMT-nin Baş direktorudur.

Qeyd etmək lazımdır ki, Diplomatik konfransın keçirildiyi günlər Azərbaycan tərəfi üçün əlamətdar hadisələrlə yadda qalıb. İlk dəfə olaraq "İnsan həyatının və sağlamlığının qorunması sahəsində" keçirilən ixtiraçılıq üzrə mötəbər yarışmada Azərbaycan milli patentinin müəllif kollektivi yüksək nəticə göstərərək qalib gəlib. Bu qələbəyə görə mükafat Avrasiya Patent Təşkilatının qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri Elmi-Tədqiqat İnstitutunun nümayəndəsi Abbas Rzayevə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov tərəfindən təqdim edilib.

Birinci yaş qrupu üzrə Azərbaycan məktəblilərinin əldə etdikləri nəticəni də xüsusi qeyd etmək lazımdır. Belə ki, "Gələcəyə baxış" Avrasiya Patent Universiadasının nəticələrinə görə, birinci yaş kateqoriyası (10 yaşdan - 17 yaş daxil olmaqla) üzrə Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin şagirdləri Cəmilə Əlizadə və Ələsgər Tarverdiyevin təqdim etdikləri "Su anbarlarının suyunun təmizlənməsi üçün bioplatonun tətbiqi" layihəsi birinci yerə layiq görülüb. Universiadanın mükafatı tədbirdə iştirak edən C.Əlizadəyə və onun rəhbəri, liseyin biologiya müəllimi Natalya Qurbanovaya təqdim olunub.

**AZƏRTAC**

# Şəmkirin yeni uşaq bağçası

**Tikinti-quruculuq işlərinin geniş vüsət aldığı Şəmkir rayonunda yeni bağça binalarının tikilməsinə və yaxud da əsaslı şəkildə təmir olunmasına bu gün böyük önəm verilir. Azyaşlı körpələrin sağlam mühitdə böyüməsi, yüksək şəraiti olan bağçalarda təlim-tərbiyə olunması üçün hər cür imkanlar yaradılır, müasir inventar və avadanlıqlarla təmin edilir.**

Son 4 ildə Şəmkir şəhər 3, 4 və 8 saylı, Keçili, Qaracəmirli, Dəllər Cırdaxan, Çaparlı, Dəllər qəsəbə 2 saylı körpələr evi-uşaq bağçaları tamamilə yenidən qurularaq balaca fidanların ixtiyarına verilib. Hazırda isə 240 yerlik rayonun ən böyük bağçası adına namizəd Kür qəsəbə 2 saylı körpələr evi-uşaq bağçası və 80 yerlik 5 saylı Şəmkir şəhər körpələr evi-uşaq bağçası təmir olunur.



Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonda aparılan bütün tikintilərlə yanaşı, uşaq bağçalarındakı təmir işləri ilə yaxından tanış olur, tikintinin keyfiyyətlə başa çatdırılması barədə hər zaman öz tapşırıq və tövsiyələrini verir. Rayon rəhbəri Kür qəsəbə 2 saylı körpələr evi-uşaq bağçasında görülən son tamamlanma işləri ilə tanış olub.

İş icraçıları Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədova yekunlaşan işlər barədə məlumat verərək bildirib ki, binanın daxilində demək olar ki, bütün əsas işlər başa çatıb. Bundan əlavə, üzlük vurulması işi görülür. Eyni zamanda uşaqların maraqları nəzərə alınaraq bağçanın həyətində xüsusi istirahət guşələri yaradılıb.

İcra başçısı bağçada görülən bütün işlərin keyfiyyətlə aparılması və sürətləndirilməsi barədə tapşırıq verib.

Onu da qeyd edək ki, 240 yerlik Kür qəsəbə 2 saylı körpələr evi-uşaq bağçası istifadəyə verildikdən sonra Şəmkirin ən böyük uşaq bağçası olacaq.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Tələbə adını qazanmış məzunlarla görüş

**Kəlbəcər Rayon İcra Hakimiyyətində ənənəvi olaraq, Gəncə şəhəri 1500 ailəlik yeni qəsəbədə yerləşən Mədəniyyət Sarayında, respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunaraq tələbə adını qazanan gənclərlə görüş keçirilib.**

Görüşdə Dövlət Himni səsləndikdən sonra, **Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov** tədbiri giriş nitqi ilə açaraq, tələbə adını qazanmış məzunları təbrik etdi. Qeyd etdi ki, ulu öndərimiz Heydər Əliyevin təhsil sahəsində qarşıya qoyduğu vəzifələr, bu gün onun ən etibarlı və layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə həyata keçirilən uğurlu təhsil islahatlarının və qəbul olunmuş Dövlət proqramlarının dönmədən icra olunması nəticəsində təhsilimiz günü-gündən mütərəqqi, qabaqcıl təcrübəni özündə əks etdirərək sivil dünyaya inteqrasiya etməkdədir. Bunun bariz nümunəsidir ki, hər il gənclərimiz dünyanın tanınmış və aparıcı universitetlərinə qəbul olur, dövlətmizin maddi dəstəyi və qayğısı nəticəsində təhsillərini davam etdirirlər. Tədrisin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin əməkhaqlarının artırılması, şagirdlərin normal təhsil almaları üçün lazımi şəraitin yaradılması istiqamətində görülən işlərin səviyyəsi daha geniş miqyas almışdır. Məhz bunun bariz nümunəsidir ki, ali və orta ixtisas təhsil müəssisələrinə qəbul olunan məzunların sayı ildən-ilə artmaqdadır. Kəlbəcər rayonu üzrə bu il tam orta məktəbləri bitirən 1127 nəfər məzun bitirmiş, ali məktəbə sənəd verənlərdən 556 nəfər tələbə adını qazanıb, onlardan 14 nəfəri 600-dən çox bal toplayıb.



Çıxışının sonunda rayon rəhbəri, kəlbəcərlilərə hər zaman göstərdikləri diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirdi.

Rayonun qabaqcıl məktəb direktorları, müəllimlər çıxış edərək, qəbul imtahanlarında müvəffəqiyyətlə iştirak edərək tələbə adını qazanmış bütün məzunları təbrik edərək, ölkədə gedən davamlı inkişafdan və həyata keçirilən uğurlu təhsil islahatlarından və qəbul olunmuş Dövlət proqramlarının uğurla icra olunmasından danışdılar.

Sonda ali məktəblərə daxil olmuş tələbələrə hədiyyələr təqdim olundu, xatirə şəkli çəkildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Azərbaycan-Ukrayna münasibətlərinin perspektivi böyükdür

**Ölkəmizin xarici münasibətlərində Ukrayna özünəməxsus yer tutur. Avropanın qədim və güclü dövlətlərindən biri olmuş Ukrayna dəfələrlə tarixin ağır sınaqlarına məruz qalmışdır. Bu gün də üzləşdiyi daxili və xarici çətinliklərə sinə gərərək bu qoca qitənin həyatında söz sahibinə çevrilmişdir. Allah bu xalqa təbiətin nemətlərini əsirgəməyib. Görünür, elə bu səbəbdən böyük dövlətlər nüfuz dairələri uğrunda mübarizədə həmişə bu ölkəyə ciddi strateji əhəmiyyət vermişlər. Ukrayna postsovet məkanında Rusiyadan sonra mühüm iqtisadi mövqeyə malik olmuşdur. Ərazisinin 60 faizindən çoxu əkin-biçin üçün münbit məhsuldar qara torpaqlarında sovet kənd təsərrüfatı məhsullarının 25 faizindən çoxu istehsal olunurdu. Bununla yanaşı, onun kənd təsərrüfatı və sənayesi ümumittifaq büdcəsinə və ölkə iqtisadiyyatına böyük qazanc gətirirdi. Hətta Sovetlər ölkəsinin əsas sütunlarından biri hesab olunurdu.**

1991-ci ilin avqustunda Ukrayna xalqı əzəli arzusuna qovuşandan sonra ölkədə bir sıra islahatlar keçirildi.

Bu gün Ukraynada müasir tələblərə cavab verən sənaye sahələri - elektrotexnika, kimya, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesi və sairə sahələr fəaliyyət göstərir. Təsadüfi deyil ki, ölkənin valyuta gəlirinin 40 faizə yaxını metallurgiyadan əldə olunur. Bu, dövlət büdcəsi gəlirlərinin 10 faizdən çoxunu təşkil edir. Ukrayna dünyada daha çox qara metal istehsal edən ölkələrdən biridir. Metallurgiya məhsullarının 80 faizindən çoxu Avropa, Asiya, Yaxın Şərq, Cənubi Amerika ölkələrinə ixrac olunur. Ölkədə yanacaq sənayesi də inkişaf edib. O, həm də elektrik enerjisi də ixrac edir. Onun əsas alıcıları Macarıstan, Polşa, Slovakiya, Rumıniya və Moldovadır. Rusiya korporasiyası isə Ukrayna atom elektrik stansiyaları üçün nüvə yanacağı tədarükünün inhisarına malikdir. O, Ukrayna üçün yanacağın böyük qismini elə onun özünün çıxardığı uran ehtiyatından hazırlayır. Zəngin taxıl və digər ərzaq bitkilərinə malik olan Ukraynada həm də heyvandarlıq sahəsi yüksək inkişaf etmişdir.

Ukrayna xarici siyasət sahəsində Avropa ölkələri, ABŞ və NATO ilə əməkdaşlığın dərinləşdirilməsinə ciddi fikir verir. Onun əsas məqsədi isə bu təşkilata üzv olmaqdır. Ukraynanın xarici siyasətində həm də Azərbaycan özünəməxsus yer tutur. Tarixən bu iki dövlət arasında əlaqələr olmuşdur. Elə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri də məhz dost Ukrayna olmuşdur.

Azərbaycan Respublikası ilə Ukrayna arasında diplomatik münasibətlər 1992-ci ilin fevralında qurulub. Ukraynanın Azərbaycandakı səfirliyi 1996-cı ilin mayında, Azərbaycanın Ukraynadakı səfirliyi isə 1997-ci ilin martında fəaliyyətə başlayıb. 1991-ci ildən etibarən iki ölkə arasında 130-dan artıq sənəd imzalanmış və münasibətlərin genişlənməsi üçün hüquqi baza yaradılmışdır. Azərbaycan ilə Ukrayna arasında heç vaxt heç bir siyasi problem olmamışdır. Çətin məqamlarda hər iki ölkə bir-birinə əl tutmaq, dayaq olmaq prinsipini bu gün də böyük əzmlə qoruyub saxlayır. Hələ 1990-cı illərdə məhsul yığımı zamanı Ukrayna yanacaq böhranı ilə üzləşən zaman Azərbaycanın çevik yardımı sayəsində bu çətinlik qısa zaman kəsiyində aradan qaldırılmışdı. Azərbaycan və Ukrayna prezidentləri dəfələrlə qarşılıqlı səfərlər ediblər. Bu səfərlərin hər biri əlaqələrin inkişafına impuls verib, münasibətlərin strateji səviyyəyə yüksəlməsini təmin edib, yeni əməkdaşlıq istiqamətlərinin əsasını qoyub. Son illər ərzində Azərbaycan ilə Ukrayna arasında strateji müttəfiqlik münasibətləri durmadan möhkəmlənir və genişlənir. Azərbaycan-Ukrayna münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuş və bu missiya Prezident İlham Əliyev tərəfindən davam etdirilmişdir.

Qarşılıqlı münasibətlərin səciyyəvi cəhəti ilk növbədə dostluq, sonra isə qarşılıqlı faydalı iqtisadi-ticarət, hərbi-strateji və siyasi əməkdaşlıqdan ibarətdir. Ukrayna ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir və Azərbaycanın xarici ticarət dövriyyəsində 6-cı yeri tutur. İki ölkə arasında ticarət mübadiləsində sabit artım müşahidə olunur. 2018-ci ildə onun həcmi 853 milyon dollar olmuşdur. İndiyədək Azərbaycan Ukraynaya 362 mln. dollar (286 mln. dolları neft, 76 mln. dolları qeyri-neft sektoruna), Ukrayna isə Azərbaycanın qeyri-neft sektoruna 25 mln. dollar investisiya qoyub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, nəqliyyat, xidmət və s. sahələrdə 150-ə yaxın Ukrayna kapitallı şirkət fəaliyyət göstərir. Azərbaycanın ticarət tərəfdaşları arasında isə Ukrayna həm ixracat, həm də idxalat üzrə ölkələrin ilk onluğundadır.

İki ölkə prezidentlərinin təşəbbüsü ilə Kiyev və Bakı şəhərlərində Ticarət evlərinin təşkili iqtisadi tərəfdaşlığı gücləndirir. Ticarət evləri Ukrayna və Azərbaycanın böyük və xırda biznesi arasında əlaqələrin tənzimlənməsi işinə kömək edəcəkdir. Eyni zamanda Bakı şəhərində "Ukrayna məhsulları" brendi üzrə mağazalar şəbəkəsi şəhər sakinlərinə geniş çeşiddə yüksək keyfiyyətli ərzaq məhsullarını təqdim edir. Hazırda Bakı şəhərində bu cür 10 mağaza fəaliyyət göstərir. Bu isə öz növbəsində iqtisadi əlaqələrin daha da genişlənməsi üzrə tərəflərin məqsədyönlü surətdə həyata keçirdiyi işlərə yaxşı bir nümunədir. Ukraynanın suverenliyi və ərazi bütövlüyü məsələsində Azərbaycan tərəfindən Kiyevə verilən dəstək həmişə yüksək qiymətləndirilmişdir. Bunun məntiqi nəticəsidir ki, son zamanlar ikitərəfli siyasi münasibətlər, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və fəal əməkdaşlıq yüksək səviyyəyə çatmışdır.



Ukrayna və Azərbaycan arasında münasibətlərin inkişafı prosesində ali orqan olan Prezidentlər Şurasının xüsusi yeri vardır. Onun iclasları müntəzəm əsaslarda keçirilir və gündəliyinə qarşılıqlı əməkdaşlığın ən aktual məsələləri çıxarılır. Həmçinin, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın müxtəlif sahələrində müvafiq hökumətlərarası komissiyaların və işçi qruplarının səmərəli fəaliyyətini də qeyd etmək yerinə düşərdi. Ötən illərdə Çernobıl Atom Elektrik Stansiyasında "Örtük" layihəsinin həyata keçirilməsi üçün Çernobıl Fonduna Azərbaycan tərəfindən bir milyon dollar həcmində vəsait köçürülməsi ölkəmizin xeyirxahlıq ənənəsinə, dostluq və əməkdaşlığa sadiqliyinin bariz nümunəsidir.

Hazırda Azərbaycanda tam Ukrayna kapitalına malik 116 şirkət fəaliyyət göstərir. Vurğulamaq lazımdır ki, gəmiqayırma, təyyarəqayırma, əczaçılıq və kənd təsərrüfatı sahələrində də ikitərəfli iqtisadi münasibətlərin inkişaf etdirilməsi üçün geniş potensial və əlverişli imkanlar mövcuddur. Azərbaycan və Ukrayna arasında sənaye, kənd təsərrüfatı və tranzit sahələrində əməkdaşlıq normal məcrada inkişaf edir. Bununla belə, maşınqayırma, kimya sənayesi, metallurgiya, kənd təsərrüfatı məhsullarının emalı və qida sənayesi, əczaçılıq, tikinti materiallarının istehsalı sahələrində əlaqələrin genişləndirilməsi üçün daha çox potensialın mövcud olması da məlumdur.

Azərbaycanın Ukraynaya enerji ixracının mütləq əksəriyyətini neft və neft məhsulları təşkil edir. Azərbaycanın maye qazının Ukraynaya nəqli məsələsi də hələ 2011-ci ildə öz həllini tapmışdır. Azərbaycan enerji ehtiyatlarının istehsalçısı kimi, Ukrayna isə istehlakçısı və tranzit ölkə kimi birlikdə bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırlar.

Qarşılıqlı əməkdaşlıqda ən mühüm istiqamətlərdən biri ticarətin artımını iki ölkə arasında əlavə nəqliyyat yolları ilə təmin etməkdən ibarətdir. Bu cəhətdən ən mühüm regional əməkdaşlıq layihələrindən biri Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutudur. Digər tərəfdən, Azərbaycanın bir sıra rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etməsi və onların emalını genişləndirməsi, habelə fındıq, meyvə və tərəvəz, xüsusilə də xurma, çay, şərab, üzüm, tütün, pambıq lifi kimi Azərbaycan məhsullarının Ukraynaya ixrac imkanlarını artırır. Bu sahədə hər iki ölkənin paytaxtlarında müntəzəm təşkil olunan "Azərbaycan-Ukrayna" Biznes Forumları mühüm rol oynayır.

Ukraynada yaşayan təxminən 500 minlik Azərbaycan diasporasının fəaliyyəti də qarşılıqlı münasibətlərin inkişafına müsbət impuls verir. Təsadüfi deyil ki, onlar bu ölkənin ictimai-siyasi proseslərində fəal iştirak edirlər. Ukraynada azərbaycanlıların 42 diaspor təşkilatı fəaliyyət göstərir. Luqansk və Donetsk vilayətləri istisna olmaqla azərbaycanlılar bütün vilayətlərdə diaspor qurumları təsis edib.

Ukrayna Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu dəfələrlə bəyan edib. Azərbaycanın Avropa Birliyində bu təşkilata daxil olması haqqında müzakirələr gedəndə, Ukraynanın nümayəndə heyəti Azərbaycanın tərəfini saxlamışdı. Ukrayna nümayəndə heyətinin səlahiyyətlərinin AŞPA-da dayandırılması məsələsinin müzakirəsində isə Azərbaycan bu qətnaməyə qarşı çıxmışdı. Ermənistan-Azərbaycan münaqişəsində Ukrayna həmişə Azərbaycanın mövqeyini müdafiə etmişdir. Həmçinin, qlobal və regional problemlərin əksəriyyəti barədə Kiyevin və Bakının yanaşmalarının üst-üstə düşdüyünü vurğulamaq lazımdır.

Ölkələrimiz BMT, ATƏT, Avropa Şurası kimi beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyət göstərir və uğurlu əməkdaşlıq edirlər. TRASEKA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də qarşılıqlı əlaqələr müsbət məcrada inkişaf etdirilir. Eyni zamanda, Azərbaycanın mədəni həyatında fəaliyyət göstərən Ukrayna icması əhəmiyyətli yer tutur. Etnik ukraynalıların Azərbaycanda aparıcı təşkilatı Azərbaycanın Ukrayna Konqresidir. Onun nəzdində "Prosvita" mədəni-təhsil mərkəzi və "Sumqayıt şəhərində İ.Franko adına Ukrayna icması" fəaliyyət göstərir.

İki ölkə arasında mədəni-humanitar əməkdaşlığın başlıca istiqamətlərindən biri təhsil sahəsidir. İki ölkənin ali təhsil ocaqları arasında əməkdaşlıq fəal surətdə inkişaf edir. Universitetlər arasındakı daimi əlaqələr və nümayəndə heyətlərinin mübadiləsi elmi-təhsil dialoqunun intensivliyini sübut edir. Bakı Dövlət Universiteti və Bakı Slavyan Universitetinin fəaliyyəti bu cür uğurlu əməkdaşlığa misal ola bilər. Universitetin nəzdində Ukrayna mədəniyyət-təhsil mərkəzi və "Slavyanoçka" Ukrayna mahnı və rəqs ansamblı fəaliyyət göstərir. Bu universitetin auditoriyalarında Ukrayna mədəniyyəti, ədəbiyyatı, tarixi və adət-ənənələri öyrənilir. Onun Ukrayna universitetləri ilə, xüsusilə də Kiyev Milli Universiteti ilə sıx əlaqələri mövcuddur.

Bakı Slavyan Universiteti ilə Poltava universitetləri arasında əməkdaşlıq haqqında əldə edilmiş razılığa uyğun olaraq Ukrayna Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi açılmışdır. Bu cür mərkəz Kiyev Milli Dilçilik Universitetində də açılmışdır. Hazırda Ukraynada ali təhsil ocaqlarında 7.500-dən çox azərbaycanlı tələbə təhsil alır ki, bunlar da oradakı xarici tələbələrin ümumi sayının 11,3 faizini təşkil edir. Tələbələrimiz əsasən maliyyə, menecment, hüquqşünaslıq, iqtisadiyyat, kompüter mühəndisliyi ixtisasları sahələrinə maraq göstərirlər. Ukraynadan olan tələbələr də Azərbaycanın nüfuzlu ali təhsil ocaqlarında təhsil alırlar. Onlar xüsusilə neft-qaz sənayesi və şərqşünaslıq, həmçinin iranşünaslıq sahələri ilə maraqlanırlar.

Hər iki respublikada tanınmış azərbaycanlı və ukraynalı yazıçı və şairlərin, o cümlədən müasir yazıçıların kitablarının tərcümələrinin nəşrinə böyük diqqət yetirilir. Ukraynalı müəlliflərin kitabları Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzdindəki Tərcümə mərkəzi tərəfindən Azərbaycan dilində nəşr edilmişdir. Həmçinin, xatirə abidələrinin qurulması iki ölkənin mədəni nailiyyətlərini əhəmiyyətli dərəcədə zənginləşdirir. Bakı şəhərinin mərkəzi prospektində ucaldılmış Taras Şevçenkonun abidəsi şəhər sakinlərinin və Azərbaycanda yaşayan ukraynalıların ən sevimli yerlərindən birinə çevrilmişdir.

Ukraynanın İrpen şəhərində isə akademik Zərifə Əliyeva adına park və küçə öz füsunkar gözəlliyi ilə seçilir. Bu park orada yaşayan azərbaycanlıların sevimli istirahət guşələrindən biri kimi tanınır. Kiyev şəhərinin mərkəzində Müslüm Maqomayev adına bağ və abidənin açılışı da sevindirici hadisə olmuşdur.

Ümumiyyətlə, Azərbaycan-Ukrayna əməkdaşlığının güclənməsi heç bir üçüncü dövlətə qarşı çevrilməyib və yalnız qarşılıqlı maraqlara xidmət edir. Ukraynanın xarici işlər naziri Pavel Klimkin 2019-cu ilin mayında Bakıda səfərdə olarkən qeyd etmişdir ki, "Mən çox şadam ki, Azərbaycanla Ukrayna arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edir. Bu gün Azərbaycan regionda lider dövlətə çevrilib. Bu, bizi sevindirir".

Əminliklə deyə bilərik ki, qarşılıqlı maraqlara əsaslanan bu tərəfdaşlıq eyni zamanda Cənubi Qafqaz regionunda və Şərqi Avropada sülh və sabitliyin daha da möhkəmlənməsinə kömək edir. Ümid edirik ki, Azərbaycan kimi, Ukrayna da özünün dövlət müstəqilliyinin yeni ildönümlərinə sosial-iqtisadi, siyasi və mədəni sahələrdə mühüm uğurlarla qədəm qoyacaqdır. Bunun üçün isə qarşılıqlı münasibətlərin perspektivi böyükdür.

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun dosenti.**

Astara Rayon İcra Hakimiyyəti
AÇIQ TENDER ELAN EDİR
Lot 1: Astara rayon ərazisində yolların əsaslı təmiri

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Astara şəhəri, İstiqlaliyyət küçəsi-13 ünvanından (əlaqələndirici şəxs: Məmmədov Rasim, telefon: (02522 5-11-51) ala bilərlər.

İştirak haqqı:
Lot-1. İştirak haqqı: 150 manat
Təşkilat: Astara Rayon İcra Hakimiyyəti
Astara Rayon Yerli Xəzinadarlıq Orqanı
Hesab: AZ08AİİB32051019447600201176
VÖEN: 3700040721
Bank: “Kapital bank” Astara filialı
Kodu:200769
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
S.W.İ.F.T Bik: AİİBAZ 2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 oktyabr 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 09 oktyabr 2019-cu il saat 18:00-a qədər Astara Rayon İcra Hakimiyyətinin Tender Komissiyasına (ünvan: Astara şəhəri, İstiqlaliyyət küçəsi 13) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 oktyabr 2019-cu il tarixdə saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

## Baş Prokurorluq Gəncə şəhər sakininin döyülərək qətlə yetirilməsi barədə yayılan xəbərləri təkzib edib

**Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Gəncə şəhər sakini Əli Əliyevin guya 22 nəfər tərəfindən döyülərək qətlə yetirilməsi barədə yayılmış məlumatlar həqiqətə uyğun olmadığından Baş Prokurorluq tərəfindən təkzib edilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2015-ci il aprelin 15-də Gəncə şəhər sakini Əli Əliyev qonşusu Sona Qəhrəmanini gecə saatlarında bıçaqla hədələyib həyətlərindən oğurlayaraq üç gün ərzində saxlayıb dəfələrlə zorlayıb, həmçinin zor tətbiq etməklə seksual xarakterli zorakılıq hərəkətləri edərək mobil telefonla videoçəkiliş aparıb.

Həmin il aprelin 18-də Sona Qəhrəmaninin qardaşı Yaqub Qəhrəmani və əmisi Əli Qəhrəmani Gəncə şəhəri ərazisində Əli Əliyevdən qisas almaq məqsədilə onu qətlə yetiriblər.

Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 26 fevral tarixli hökmünə əsasən Y.Qəhramani 17 il 6 ay, Ə.Qəhrəmani isə 17 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunublar.

**AZƏRTAC**

## BİLDİRİŞ

“Bakı Metropoliteni” QSC tərəfindən Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satınalınmasına dair “Respublika” qəzetində 17 və 27 avqust 2019-cu il tarixlərində və tender.gov.az saytında dərc edilmiş elanlara əsasən açıq tenderdə göstərilən müddətdə iddiaçılar tərəfindən müraciətlər təqdim olunmadığından tender baş tutmamış hesab olunur və satınalma prosedurunun davamından imtina edilir.

**“Bakı Metropoliteni” QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

“Respublika” qəzetinin 17 avqust 2019-cu il tarixli sayında Goranboy Rayon Mərkəzi Xəstəxanasının dərc olunmuş kotirovka sorğusu elanı ləğv olduğunu elan edir.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

“Respublika” qəzetinin 17 avqust 2019-cu il tarixli sayında Goranboy Rayon Mərkəzi Xəstəxanasının dərc olunmuş tender elanı ləğv olunduğunu bildirir.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 16 avqust 2019-cu il tarixində kotirovka sorğusu metodu ilə keçirilmiş satınalma prosedurunun nəticələrinə əsasən Komitənin inzibati binasında 2019-cu il ərzində tələb olunan “cari təmir işləri”nin satınalınması üzrə 19942,67 manat məbləğində kotirovka təklifi təqdim etmiş “HN CONSTRUCTİON” Məhdud Məsuliyətli Cəmiyyəti qalib müəyyən edilmişdir.

Qeyd olunan qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN BAYTARLIQ ELMİ-TƏDQİQAT İNSTİTUTU

Kotirovka sorğusu haqqında:

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN BAYTARLIQ ELMİ-TƏDQİQAT İNSTİTUTU inventarların, avadanlıqların, kimyəvi preparatların, digər maşın və avadanlığın alınması kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 0125128403, 0702452805 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.09.2019-cu il saat 15:00 tarixinədək qəbul olunur.

Faks nömrəsi: 0125128403, 0702452805

**Ünvan:** *Bakı şəhəri, Nizami rayonu, Böyük Şor qəsəbəsi, 8-ci köndələn küçəsi.*

## Invitation for Bids

**The Republic of Azerbaijan**
**Integrated Rural Development Project**
**Loan No: I-838AZ**

**Contract Title: Equipment for zonal veterinary laboratories (Ujar, Sheki)**

**Reference No.** (as per Procurement Plan): **IRDP-ICB-2.2.2.1_1**

